Yeni nəşrlər

# Azərbaycan nizamişünaslığına yeni bir töhfə

Bu yaxınlarda Azərbaycanın tanınmış professorları Mahirə Hüseynova, Elman Quliyev və Seyfəddin Rzasoyun Türkiyədə “Büyük Azerbaycan Mütefekkiri Nizami” (Türkiye-Bursa-2022) adlı kitabı nəşr olunmuşdur. Azərbaycan Prezidentinin 2021-ci ili ölkəmizdə “Nizami Gəncəvi İli” elan olunması ilə bağlı sərəncamından irəli gələn tədqiqatlar çərçivəsində hazırlanmış kitab Türk Ocaqları Dərnəyi Bursa şöbəsi tərəfindən nəşr edilərək geniş şəkildə Türkiyənin elmi-mədəni ictimaiyyətinə təqdim olunmuş və Türkiyə dövrü mətbuatında kitabla bağlı yazılar dərc edilmişdir.Beynəlxalq layihə kimi çap olunan kitabı geniş mənada türk dünyasında Nizaminin təbliği sahəsində irəli atılmış əhəmiyyətli addım hesab etmək olar.




XII əsr Azərbaycan, Şərq və dünya ədəbiyyatının dahi siması olan Nizami Gəncəvi yaradıcılığının Türkiyə və türk dünyasında daha fərqli, eyni zamanda dərin elmi-fəlsəfi mahiyyətdə tanıdılmasını qarşılarına məqsəd qoyan müəlliflər şairin bədii-fəlsəfi düşüncələrini, poeziyasının bədii-estetik, ideya-məzmun xüsusiyyətlərini müasir Azərbaycan filologiyasının nəzəri-intellektual düşüncəsi səviyyəsində təqdim edə bilmişlər.

“Büyük Azerbaycan Mütefekkiri Nizami” kitabı, ilk növbədə, Nizami yaradıcılığı çərçivəsində türk milli-estetik konsepsiyasının tədqiqi və təbliği baxımından əlamətdardır. Kollektiv monoqrafiyada “Nizami Gəncəvi” fenomeninə aşağıdakı baxış müstəvilərində yanaşılmışdır:

*I. Nizami dühasının türk milli tipində təsdiqi, onun milli və ədəbi kimliyini fars milləti, dili və ədəbiyyatına bağlayan köhnə oriyentalist baxışların əsassızlığının sübutu və sənətkarın milli-ədəbi kimliyinə mətnmərkəzli yeni baxış metodologiyası çərçivəsində münasibətin bildirilməsi:*

Müəlliflərin kitabda gerçəkləşdirdikləri bu yanaşma bucağı Nizami şəxsiyyətinə etnik kimlik müstəvisində yanaşmanı, onun ədəbi-bədii kimliyini özünün necə dərk və ifadə etməsi müstəvisinə yüksəltməklə böyük mütəfəkkirin yaradıcılığında yeni bədii-fəlsəfi məna qatlarını aşkarlamağa və öyrənməyə, şairin yaradıcılıq texnologiyasının incəliklərinə boylanmağa, türk epos poetikasını “Xəmsə”nin poetik strukturunda necə “yerləşdirməsini” və onu müəllif konsepsiyasının təcəssümündə əsas funksional məna modellərindən birinə necə çevirməsini görməyə imkan vermişdir. Nizaminin həm əsərin adında, həm də bütöv kitabın ideya xəttində “mütəfəkkir” konsepti ilə təqdim olunmasını müəlliflərin məqsədli gedişi hesab etmək olar. Müəlliflər belə hesab etmişlər ki, böyük mütəfəkkirin “şair” paradiqmasında təqdimi Nizami fenomeninin əsrləri əhatə edib bu günümüzə qədər davam edən bədii-estetik, poetik-fəlsəfi funksionallığını tam şəkildə əhatə etmir,əksinə sənətkara“mütəfəkkir” paradiqmasında yanaşma isə uyğun nəzəri-metodoloji yanaşmanı inikas edir.

*II. Kitabda Azərbaycan nizamişünaslığının tarixi-filoloji nailiyyətlərinin inikas olunması:*

Bu, bir həqiqətdir ki, Nizami yaradıcılığının öyrənilməsi sahəsində müasir Azərbaycan nizamişünaslığı dünya şərqşünaslığının ən aparıcı mərkəzini təşkil edir. Keçən əsrin 30-40-cı illərində formalaşan, 70-80-ci illərdə Nizami yaradıcılığı və şəxsiyyətinin yanlış, o cümlədən qərəzli platformalarda təqdiminə etiraz dalğası üzərində öz aktivliyini daha da artıran Azərbaycan nizamişünaslığı sənətkarın şəxsiyyəti və yaradıcılığının tədqiqi sahəsində əvəzsiz nailiyyətlərə imza atmış, Nizami kimliyini bütün səviyyələrdə qeyri-sağlam yanaşma və metodologiyalardan, qərəzli və fitnəkar siyasi-milli yanaşmalardan qoruyaraq,onu obyektiv elmi ölçülər miqyasında dünyaya təqdim etməyi bacarmışdır. Müəlliflər kitabda müasir Azərbaycan nüzamişünaslığının əldə etdiyi elmi nailiyyətlərə əsaslanmaqla Nizami fenomeninə yeni prizmadan baxmağı da bacarmışlar.

*III. Kollektiv monoqrafiyada müasir Azərbaycan filoloji üslubunun dil-təhkiyə estetikasının əks olunması:*

“Büyük Azerbaycan Mütefekkiri Nizami” kitabı maraqlı və təqdirəlayiq bir beynəlxalq layihə olaraq gerçəkləşdirilmişdir. Kitab həm Türkiyə, həm də Azərbaycan türkcəsində nəşr olunmuşdur. Bu nəşrin özəlliyi ondadır ki, mətn iki dildə yanaşı səhifələrdə verilmişdir. Kitabin işıq üzü görməsində xüsusi xidmətləri olan Türk Ocaqları Dərnəyinin Bursa Şöbəsinin başkanı professor Səlçuq Kırlının yazdığı ön sözdə “Büyük Azerbaycan Mütefekkiri Nizami” kitabının bu şəkildə nəşr olunmasının səbəbi açıqlanmış, məqsədli olaraq bu formanın həm Nizaminin, həm də Azərbaycan dilinin təbliği üçün nəzərdə tutulduğu bildirilmişdir.

Azərbaycan müəllifləri kitabın iki dildə çap olunmaq məsuliyyətini nəzər alaraq, Türkiyə oxucularına Azəırbaycan türkcəsinin filoloji estetikasını, nəzəri-kateqorial təhkiyə səviyyəsini, intellektual-üslubi funksionallıq imkanlarını, linqvopoetik özəlliklərini və s. nümayiş etdirməyə nail olmuşlar.

*IV. Monoqrafiyanın Azərbaycan filologiyasının elmi struktrunu özündə əks etdirməsi:*

Bu yanaşma öz ifadəsini müəlliflər kollektivinin müəyyənləşməsində tapmışdır. Müəlliflərdən professor M.Hüseynova görkəmli alim, elm təşkilatçısı, tanınmış linqvist və şairə, professor E.Quliyev müasir Azərbaycan və türk xalqları ədəbiyyatı mütəxəssisi, professor S.Rzasoy mifoloq-folklorşünasdır. Kollektivin bu quruluşda müəyyənləşməsi Nizami yaradıcılığına Azərbaycan filologiyasının müxtəlif kontekstlərdə baxış imkanlarını xeyli artırmışdır.

*V. Kitabda Nizami şəxsiyyəti və yaradıcılığının Azərbaycan, Şərq və dünya üçün müasir aktuallığının inikası:*

Müəlliflər Nizami bədii-fəlsəfi fenomeninə klassik irs kimi deyil, bəşəriyyətin müasir düşüncəsini öz bədii-fəlsəfi enerjisi ilə qidalandıran, insanların, ailələrin, kollektivlərin, xalqların, millətlərin, cəmiyyətin və təbiətin həyatına ilahi-kosmoloji, sosial-mənəvi harmoniya gətirən müasir düşüncə qaynağı kimi yanaşmışlar. Kitabda professor Mahirə xanım Hüseynova tərəfindən yazılmış “Nizami Gəncəvi ili”: Gələcək üçün çağırış” fəslinin məzmunu və ideyasını məhz bu təşkil edir. Müəllifə görə, 800 ildən artıq müddətdir ki, Nizami ancaq dərin məna yükü daşıyan əvəzsiz şeir yükü ilə deyil, həm də insanlara elmin qüdrətini təmin edən, onları proqresdə olan yolun yolçusu olmağa dəvət edən bir missioner kimi Yaxın Şərqdən Orta Asiyaya qədər olan geniş coğrafiyada ədəbi-fəlsəfi simvola dönübdür.

Kitabın digər fəsilləri də birinci fəsil kimi Nizami yaradıcılığının aktual problemlərinə həsr olunmaqla müasir filoloji təhlil səviyyələrinin bütün nəzəri-metodoloji imkanlarını özündə əks etdirir. Bu cəhətdən professor E.Quliyev Nizami fenomeninə “Nizami və “Xəmsə” ənənəsi”, “Müasir qazax ədəbiyyatında Nizaminin özü və sözü (Xalijan Bekxojinin “Afaqnamə” poeması əsasında)”, professor S.Rzasoy “Nizami Gəncəvinin “Yeddi gözəl” məsnəvisinin əsas süjetinin folklor-mofoloji semantikası” kontekstlərində yanaşmaları diqqət cəlb edir.

Belə hesab edirik ki, müəlliflər “Büyük Azerbaycan Mütefekkiri Nizami” monoqrafiyasında, bütövlükdə götürdükdə, öz qarşılarına qoyduqları məqsədin öhdəsindən uğurla gəlmiş, Türkiyə oxucularına dahi Nizami haqqında böyük təsəvvürləri yaradan, sənətkarın mütəfəkkir kimliyinin poetik miqyaslarını və fəlsəfi mahiyyətini işıqlandıran elmi əsər təqdim edə bilmişlər. Düşünürük ki, bu kitab təkcə Türkiyə elmi və kütləvi oxucuları üçün deyil, eyni zamanda türk dünyası və Azərbaycan oxucuları üçün də böyük əhəmiyyətə malikdir. Kitabdakı Nizami yaradıcılığına münasibətdə gerçəkləşdirilmiş yeni yanaşma metod və modellərini Azərbaycan nizamişünaslığının perspektiv inkişaf istiqamətləri baxımından faydalı hesab etmək olar.

**Ülkər BAXŞIYEVA,**
*ADPU-nun Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru*